**AZƏRBAYCAN RESPUBLİLKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№306/2** **11 dekabr 2018-ci il**

**“İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.8.7-ci “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsaitin hazırlanması” bəndinə müvafiq olaraq Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor Altay Cəfərov tərəfindən hazırlanmış metodik vəsaitin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait” təsdiq edilsin (əlavə olunur).

2. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki:

- bir həftə müddətində “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait”in tətbiq edilməsi məqsədilə Auditorlar Palatasının üzvlərinə və idxal-ixrac əməliyyatları ilə məşğul olan dövlət qurumlarına (Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə, Vergilər Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Maliyyə Bazarlarına Nəzarət Palatasına, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə, Azpromo - Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonduna) göndərilməsini təmin etsin;
- “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait”in auditorların ixtisasartırma kursunun proqramına daxil edilməsinin təmin etsin.

3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait”in “Audit.Qanunvericilik və normativ sənədlər toplusu”nun onuncu cildinə daxil edilməsini təmin etsin.

4. “İdxal-ixrac əməliyyatlarının auditi üzrə metodik vəsait”in müəllifi, sərbəst auditor A.Cəfərova təşəkkür elan edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**